**Azərbaycan Milli Kitabxanası ilə**
**Los Anceles Kampusu adından**
**Kaliforniya Universitetinin idarə heyəti (UCLA)**
**arasında**
**ANLAŞMA MEMORANDUMU**

Azərbaycan Milli Kitabxanası və UCLA ümumi akademik maraqlarla bağlıdır və ortaq maraq və təcrübə sahələrində əməkdaşlıq və mübadilənin inkişaf etdirilməsi imkanını nəzərdən keçirməkdədirlər. Bu Anlaşma Memorandumuna müvafiq olaraq həyata keçirilən tədbirlər Azərbaycan Milli Kitabxanası və UCLA qarşılıqlı faydalı olmağı nəzərdə tutan əməkdaşlığa əsaslanır.

**1. Məqsəd**

Bu Anlaşma Memorandumu bir sıra ümumi akademik məqsədlərlə bağlı Azərbaycan Milli Kitabxanası və UCLA arasında razılaşdırılmış prinsiplərə aid yazılı bir anlaşma olaraq xidmət edir.

Bu, qeyri-məcburi bir müqavilədir və tərəflərin qarşılıqlı fayda əldə etmələri üçün həyata keçirilə bilən fəaliyyətlərin xüsusiyyəti və sahəsini aydınlaşdırmağı nəzərdə tutur. Hər bir tərəf öz xərclərini ödəməyə görə məsuliyyət daşıyacaq.

Tərəflər xüsusi resurslar, kadrlar, məkan, avadanlıqlar və ya başqa akademik və ya intellektual fəaliyyətlərin təəhhüdlərini götür-qoy edə bilərlər, lakin bunlar bu Anlaşma Memorandumunun əhatə dairəsindən kənardadır.

Razılaşdırılmış hər hansı bir tədbirin həyata keçirilməsi resurs, kadr və ya əqli mülkiyyət öhdəliyi tələb etdikdə hər hansı bir layihə üzərində işə başlamazdan əvvəl əlavə razılaşma tərəflər tərəfindən müzakirə edilməli və təsdiq edilməlidir.

**2. Məqsədlər, əhatə dairəsi və əsas fəaliyyətlər**

Hər iki tərəf aşağıdakı fəaliyyət növlərində inkişafı dəstəkləməyə razılaşırlar:

- Təhsil və tədqiqatın xüsusi sahələrində heyət, alim və administratorların səfərləri və qeyri-rəsmi mübadiləsi.
- Qarşılıqlı maraq sahələrində ortaq konfransların, simpoziumların və ya digər elmi görüşlərin təşkil edilməsi.
- Akademik informasiya və materialların mübadiləsi.

3. **Tərəflərin öhdəlikləri**

Hər bir tərəf tətbiq olunan bütün dövlət və federal qanunlarına, nizamnamələrinə və tərəflərin siyasətlərinə tabe olacaqdır.

Tərəflər hər hansı bir razılaşdırılmış fəaliyyətin həyata keçirilməsinin cəlb olunmuş şəxslərin maraq və təcrübəsindən və maliyyə resurslarının, məkanın və digər resursların mümkünlüyündən asılı olduğunu qəbul edirlər. Ona görə də, bu Anlaşma Memorandumuna əsaslanan hər hansı bir mübadilə, mənsubiyyət, əməkdaşlıq və ya digər əməkdaşlıq proqramının həyata keçirilməsi ayrı-ayrılıqda müzakirə ediləcək və tərəflərin imzalamış olduğu yazı ilə sənədləşdiriləcək.

Hər bir tərəf bu Anlaşma Memorandumunda nəzərdə tutulmuş fəaliyyətləri həyata keçirmək üçün bir koordinator təyin edəcək. UCLA`nın koordinatoru Şaron E. Farb, Universitet Kitabxanaçısı. Azərbaycan Milli Kitabxanasının koordinatoru isə prof. Kərim Tahirov, Azərbaycan Milli Kitabxanasının direktoru.

**4. Müddət və dəyişiklik etmə, uzatma və ya ləğv etmə seçimi**

Bu Anlaşma Memorandumu tərəflər tərəfindən imzalandıqdan sonra qüvvəyə minir. Anlaşma Memorandumu Qüvvəyə minmə tarixindən beş (5) il müddətinə qüvvədə qalır, və tərəflərin qarşılıqlı yazılı razılığı ilə yenilənə və ya dəyişiklik edilə bilər. Hər hansı bir tərəf digər tərəfə sonlandırma ilə bağlı yazılı məlumat verərək bu Anlaşma Memorandumunu istənilən vaxt sonlandıra bilər. Tərəflər həyata keçirilən fəaliyyətləri və əldə edilən irəliləyişləri mütəmadi olaraq nəzərdən keçirməyə və bu Anlaşma Memorandumuna dəyişiklik edilməsi, yenilənməsi və ya xitamı ilə bağlı olaraq məsləhətləşməyə razıdırlar.

**5.Ümumi şərtlər**

Bu Anlaşma Memorandumunda hər hansı bir tərəf, onun işçiləri, əməkdaşları və ya təmsilçiləri tərəfindən digər tərəfə, onun işçiləri, əməkdaşları və ya təmsilçilərinə qarşı hər hansı bir maddi və ya mənəvi, qanunda və ya ədalətdə tətbiq olunan haqq, mənfəət, məsuliyyət nəzərdə tutulmur və yaratmır.

Bu Anlaşma Memorandumundakı heç bir şey tərəflər arasında layihə və fəaliyyətlərin təmin olunmasında tərəfləri hər hansı bir vəsait, avadanlıq və ya resurs transfer etmək və ya öhdəsinə götürmək məcburiyyətində qoymur.

Heç bir tərəf digər tərəfin əvvəlcədən yazılı razılığı olmadan digər tərəfin adını açıq şəkildə və ya dolayı olaraq hər hansı bir ictimai rəydə, press relizdə, tanıtımda və ya reklamda istifadə edə bilməz.

**6. İmzalar**

Bu Anlaşma Memorandumu hər iki tərəfin səlahiyyətli nümayəndələri tərəfindən tam şəkildə icra olunduqdan sonra son imza tarixindən ("Qüvvəyə minmə tarixi") qüvvəyə minir.

**Azərbaycan Milli Kitabxanası**
İmza:
Adı: prof. Kərim Tahirov
Vəzifə: Direktor
Tarix: 9 yanvar, 2018-ci il
Telefon nömrəsi: +99412 493 40 03
e-mail ünvanı: contact@anl.az

**Kaliforniya Universitetinin idarə heyəti**
İmza:
Adı: Virginia Steel
Vəzifə:
Norman və Armena Povel Universitet Kitabxanaçısı
Tarix:
Telefon nömrəsi: 310/825.1201
e-mail ünvanı: vsteel@library.ucla.edu